*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 sentyabr 2016-cı il № 72 (2087) Qiymәti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bizim gənclərimiz bu ilin aprel ayında erməni işğalçıları üzərində parlaq hərbi qələbə qazanıblar

Müstəqil dövlətçiliyimizin banisi böyük öndər Heydər Əliyev təhsili millətin gələcəyi hesab edirdi. Ümummilli Liderin yolunu ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə təhsilin inkişafına böyük diqqət ayırır və böyüməkdə olan nəslin elm və biliklərə yüksək səviyyədə yiyələnməsini prioritet sahələrdən hesab edir. Ölkədə nəhəng təhsil infrastrukturunun formalaşdırılması isə gənc nəslin gələcək inkişafına hesablanmış strateji addımlardandır və onların nümunəvi vətəndaş kimi formalaşmasında mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bilik Günündə Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində iştirak etdi, yeni tədris binasının rəmzi açılış lentini kəsdi və burada yaradılan müasir şəraitlə tanış oldu.

Prezident İlham Əliyev sinif otaqlarında yaradılan şəraitlə maraqlandı.

Bildirildi ki, 960 şagird yerlik məktəbdə informatika otağından əlavə, hərbi hazırlıq, fizika, kimya, biologiya üzrə fənn laboratoriyaları yaradılıb, onların hamısı əyani vəsaitlər və tədris avadanlığı ilə təchiz olunub. Müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şəraitin yaradıldığı akt zalından əlavə, 540 kvadratmetr sahəsi olan və müxtəlif avadanlıqla təchiz edilən idman zalı da şagirdlərin ixtiyarına verilib.

Məktəbin birinci sinif şagirdləri ilə görüşən Prezident İlham Əliyev onları Bilik Günü münasibətilə təbrik etdi. Müəllim və şagird kollektivi ilə söhbətində ölkə rəhbəri yeni tədris ilinin başlanması münasibətilə onları təbrik etdi.

Azərbaycan dövlətinin güclü dövlət olduğunu və təhsil sahəsinin ölkəmiz üçün prioritet sayıldığını söyləyən Prezident İlham Əliyev bildirdi ki, son on il ərzində Azərbaycanda üç mindən çox məktəb tikilib və ya əsaslı şəkildə təmir edilib.

Dövlət başçısı fəxrlə bildirdi ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. "Əgər inkişaf etmiş ölkələrin tarixinə və bu gününə baxsaq, görərik ki, o ölkələrdə təhsil, texnologiya, elm inkişaf edir. Biz də bu yolla gedirik.



Azərbaycanda gənc nəslin bilikli, savadlı olması ölkəmizi gücləndirir. Çünki iqtisadiyyatda, sənayedə, bütün sahələrdə çox gözəl mütəxəssislər lazımdır".

Həyatda yaxşı yer tutmaq və Vətənə daha böyük fayda gətirmək üçün şagirdlərin yaxşı oxumalı olduqlarını tövsiyə edən Prezident xüsusilə vurğuladı: "Bizim gənc nəslimiz vətənpərvər olmalıdır, milli ruhda böyüməlidir. Burada da, əlbəttə ki, müəllimlərdən çox şey asılıdır. Gənclərin həm ailələrdə, həm məktəblərdə milli ruhda tərbiyə alması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə indiki şəraitdə dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır. Ona görə Azərbaycan cəmiyyəti bundan sonra da çox möhkəm, milli, mənəvi dayaqlar əsasında inkişaf etməlidir. Bu gün bu, belədir. Bu gün bizim siyasətimizin təməlində milli maraqlarımız, milli dəyərlərimiz, Azərbaycan dəyərləri dayanır. Bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün hər şeydən üstün olmalıdır. Elə etməliyik ki, gələcək nəsil də bu istiqamətdə inkişaf etsin. Ona görə vətənpərvərlik, Vətənə olan bağlılıq, milli-mənəvi dəyərlər məktəblərdə mütləq geniş vüsət almalıdır, müəllimlər də bu istiqamətdə daha fəal iş aparmalıdırlar".

Təkcə təhsillə bağlı ölkəmizdə son illərdə görülən çoxşaxəli işlər bir daha göstərir ki, Azərbaycan müstəqillik illərində çox böyük inkişaf yolu keçib. Dövlət başçısının 311 nömrəli tam orta məktəbdə qeyd etdiyi kimi, bu il Vətənimizdə dövlət müstəqilliyinin bərpasının 25 illiyi təntənə ilə bayram ediləcək. Bu müddət ərzində xalqımızın əldə etdiyi nailiyyətlər təhsillə birlikdə həyatımızın bütün - siyasi, iqtisadi, mədəni və sosial sahələrini əhatə edir. Azərbaycanın şəhər və kəndləri öz simasını dəyişərək inkişaf edib, şəhərlər gözəli Bakı qədimliyi ilə yanaşı, müasirliyi ilə də bütün dünyanın diqqətini çəkir. Ancaq zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Vətənimizə dünyanın müxtəlif bölgələrində münasibət birmənalı deyil. Bununla bağlı dövlət başçısı müəllim və şagirdlər qarşısında çıxışında vurğuladı: "Bizə təzyiqlər ona görə artır ki, biz öz yolumuzla gedirik, heç kimin qarşısında baş əymirik, özümüzü ləyaqətlə aparırıq, milli maraqlarımızı qoruyuruq, Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tuturuq və bu siyasət davam etdiriləcək. Bu gün bu siyasət var, bu siyasəti mən aparıram və heç bir qüvvə məni bu yoldan döndərə bilməz. Mən istəyirəm ki, burada, bu mərasimdə iştirak edən gənclər də gələcəkdə bu yolla getsinlər. Çünki gələcəkdə ölkəmizi gənclər idarə edəcəklər. Ölkələrin inkişafını şərtləndirən onun insanlarıdır. Ölkəni hansı insanlar idarə edirlərsə və xalq onları dəstəkləyirsə, bax, o siyasət də aparılır. Ona görə biz həmişə müstəqil olmalıyıq. Heç vaxt müstəqilliyimizi əldən verməməliyik."

Prezident İlham Əliyev təhsil işçiləri ilə görüşü zamanı müstəqilliyimizin qorunmasında və ölkəmizin inkişafında aparıcı qüvvə olan gənclərin rolundan da danışdı. Dövlət başçısının sözlərinə görə, gələcəkdə ölkəmizi gənclər idarə edəcəklər və onun inkişafını şərtləndirən də məhz gənclərdir. Ölkə gənclərinin avanqardı bu gün ordu sıralarında xidmət edir, torpaqlarımızın bir qismini işğal etmiş Ermənistan silahlı birləşmələrilə təmas şəraitində Azərbaycanın ərazi bütövlüyünün keşiyində dayanır. Əsasən gənclərdən ibarət olan Silahlı Qüvvələrimiz həmçinin Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq gündəlik məşğələ və təlimlərdə ixtisas və taktiki hazırlıqlarını artırmaqla məşğuldur. Haqlı olaraq hərbi ekspertlər Azərbaycan Ordusunu Cənubi Qafqazın ən qüdrətli güc strukturu hesab edirlər. Bunu qoşunlarımızın bölmələri apreldə düşmənin ön xətdə törətdiyi təxribatlara cavab verərkən bir daha sübut etdi. Cəbhədə baş vermiş həmin hadisələrə dövlət başçısı münasibətini bildirərkən dedi: "Bizim gənclərimiz müstəqilliyimizi qoruyurlar. Bizim gənclərimiz bu ilin aprel ayında erməni işğalçıları üzərində parlaq hərbi qələbə qazanıblar. Şəhidlər vermişik. Ancaq bizim gənclərimiz bu ilin aprelində Azərbaycanın dövlət bayrağını Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsində qaldırıblar. Bu böyük parlaq qələbəni bizim gənc əsgər və zabitlərimiz qazanıblar, bütün xalq qazanıbdır, ordumuz qazanıbdır. Amma əsas özünü qabağa verən, şəhidlik zirvəsinə ucalan bizim gənclərimizdir. Bizim gənclərimiz bayrağımızı Rio Olimpiya Oyunlarında qaldırıblar. Biz medalların sayına görə dünya miqyasında 14-cü yerdəyik. Bu, tarixi qələbədir. Müsəlman aləmində birinciyik. Yenə də bunu gənclər edibdir."

Ölkə rəhbərinin gənclərə, o cümlədən ordu sıralarında müstəqilliyimizin keşiyində dayanan gənclərə belə yüksək dəyər verməsi hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş Silahlı Qüvvələrimizdə döyüş ruhunun daha da yüksəldilməsinə bilavasitə təsir göstərən amillərdəndir.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseydə olub



*Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseydə yeni tədris ilinin başlanması və Bilik Günü münasibətilə tədbir keçirilib.*

Əvvəlcə ümummilli lider Heydər Əliyevin məktəbin ərazisində ucaldılmış büstü önünə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.

Hərbi Liseyin kursantlarını Bilik Günü münasibətilə təbrik edən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə və muxtar respublikada ordu quruculuğu sahəsində ardıcıl tədbirlərin görüldüyünü bildirib. Silahlı Qüvvələrimizin həm güclü maddi-texniki bazaya, həm də peşəkar və vətənpərvər şəxsi heyətə malik olduğunu deyən Müdafiə naziri müasir dövrdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin mühüm istiqamətlərindən biri kimi ixtisaslı kadrların yetişdirilməsini xüsusi vurğulayıb.

Hərbi təhsil müəssisəsinin rəisi general-mayor Elman Orucov dövlət rəhbərliyinin himayəsi və yüksək qayğısı ilə liseydə ən müasir şəraitin yaradıldığını qeyd edib. O, kursantların təhsili ilə yanaşı, sosial müdafiəsi və vətənpərvərlik tərbiyəsinin də diqqət mərkəzində olduğunu bildirib. Sonra çıxış edən kursant və valideynlər ölkəmizdə ordu quruculuğundan danışıb, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.





Sonra Heydər Əliyev adına Hərbi Liseyin bir qrup hərbi qulluqçusu Müdafiə nazirinin əmri ilə medallarla təltif edilib.

Daha sonra liseyin pedaqoji kollektivi və valideynlərlə görüşən nazir tədris korpusunda və yataqxanada yaradılan şəraitlə tanış olub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə naziri Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri ərazidə yerləşən və tikintisi davam etdirilən müdafiə əhəmiyyətli obyektlərə baş çəkib. Ərazinin xüsusiyyətləri nəzərə alınmaqla Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına yeni daxil olan daha güclü və davamlı müasir tipli döyüş texnikası və hərbi nəqliyyat vasitələrinə baxış keçirilib.

"N" hərbi hissəsində şəxsi heyətin döyüş hazırlığı, sosial-məişət şəraiti yoxlanılıb, ərazidəki digər infrastruktur sahələrinə baxış keçirilib. Nazir əsgərlərlə birlikdə nahar edib.

Müdafiə nazirinin rəhbərliyi altında ordunun komandanlıq heyəti ilə xidməti müşavirə keçirilib.

Ali Baş Komandanın Silahlı Qüvvələr qarşısında qoyduğu döyüş tapşırıqlarını şəxsi heyətin diqqətinə çatdıran nazir coğrafi baxımdan strateji əhəmiyyətli məkanda yerləşən Əlahiddə Ümumqoşun Ordunun döyüş hazırlığının, hərbi intizamın və sosial-məişət şəraitinin yüksək səviyyədə olduğunu bir daha qeyd edib.





Müdafiə naziri ölkə və muxtar respublika rəhbərliyinin daim diqqəti ilə əhatə olunan ordunun silahlanmasında ən müasir döyüş texnikası, silah-sursat, rabitə, kəşfiyyat-müşahidə və digər müdafiə əhəmiyyətli hərbi cihaz və avadanlıqların olduğunu xüsusi vurğulayıb.

Müşavirənin sonunda Əlahiddə Ümumqoşun Ordunun döyüş hazırlığında yüksək nəticələr əldə etmiş, hərbi xidmətdə fərqlənmiş bir qrup hərbi qulluqçuya Müdafiə nazirinin əmri ilə medallar və qiymətli hədiyyələr təqdim olunub.

# Azərbaycan və Böyük Britaniya hərbi hüquq ekspertləri arasında görüş keçirilib

*Azərbaycan Respublikası və Birləşmiş Krallığın Müdafiə Nazirlikləri arasında illik hərbi əməkdaşlıq planına əsasən, Müdafiə Nazirliyinin Hüquq İdarəsində iki ölkənin hərbi hüquq üzrə ekspertlərinin işçi görüşü keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir zamanı müdafiə sahəsində qanunvericiliklə bağlı təcrübə mübadiləsi, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsinin xüsusiyyətləri, Silahlı Qüvvələrdə hüquq xidmətinin təşkili məsələləri, eləcə də hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində qabaqcıl təcrübənin öyrənilməsi üzrə müzakirələr aparılıb.

# Azərbaycan Qoşulmama Hərəkatının sammitində təmsil olunur

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının "İnkişaf naminə sülh, suverenlik və həmrəylik" devizi altında növbəti XVII sammiti Venesuela Bolivar Respublikasının Marqarita adasında öz işinə başlayıb. Azərbaycanı sammitdə Xarici İşlər naziri (XİN) Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

XİN-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sammit zamanı 2012-ci il Tehran sammitindən sonrakı müddət ərzində baş vermiş proseslər və əldə edilmiş uğurların nəzərdən keçirilməsi, yeni proseslər fonunda beynəlxalq sülh, təhlükəsizlik, inkişaf və əməkdaşlığa dair üzv dövlətlərin ortaq mövqeyinin müzakirə olunması və tədbirin sonunda bu məsələlərə dair yekun sənədin qəbul edilməsi nəzərdə tutulur.

Venesuelada keçirilən sammitin gündəliyində ölkəmiz üçün birbaşa əhəmiyyətli olan bir sıra məsələlər yer alır. Sammitin yekun sənədinin layihəsinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə edən bənd daxil edilib. Bundan əlavə, Venesuela sammitində Qoşulmama Hərəkatına 2019-2022-ci illərdə sədrliyin Azərbaycan Respublikasına keçməsi və Hərəkatın 18-ci sammitinin 2019-cu ildə Bakıda keçirilməsi barədə qərarın qəbul olunması gözlənilir.

# Hələ uğurlarımız öndədir

*Ötən saylarımızda Rusiya Federasiyasında "Beynəlxalq Ordu Oyunları-2016" çərçivəsində keçirilən "Xəzər Kuboku-2016" müsabiqəsində hərbi dənizçilərimizin uğurları barədə məlumat vermişdik. Kaspiysk şəhərində təşkil edilmiş yarışlarda ölkəmizi G124 gözətçi gəmisi ləyaqətlə təmsil etmişdi.*

Azərbaycan hərbi dənizçiləri ikinci dəfə idi ki, ordu oyunlarına qatılırdı.

Üç mərhələdə - gəmi silahlarının təyinatı üzrə tətbiq edilməsi, gəminin salamat qalması, heyətlərin dənizçilik vərdişləri və xilasetmə hazırlığı üzrə təşkil edilən yarışlarda hərbçilərimiz Rusiyadan sonra ikinci



nəticə göstərmişdi.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin adına olan bu uğuru təmin edən kimlər idi? Bu suala cavab almaq üçün müsabiqəyə hazırlıq işlərinin görülməsində və yarışlarda iştirak etmiş hərbi dənizçilərimizlə görüşüb söhbət etdik.

Bir faktı qeyd etmək yerinə düşər ki, bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da bütün nailiyyətlərin əsasında insan amili dayanır. Dövlət rəhbərliyi səviyyəsində Silahlı Qüvvələrə göstərilən yüksək qayğı, Müdafiə Nazirliyinin bütün qoşun növlərində döyüş hazırlığına önəm verilməsi hərbi hissələrimizdə uğurlara zəmindir.

Gəmilər yola düşməmişdən qabaq Hərbi Dəniz Qüvvələri komandanının vəzifələrini icra edən birinci dərəcəli kapitan Hicran Rüstəmzadə hərbi dənizçilərin qarşısına birinci yer uğrunda mübarizə aparmağı məqsəd qoymuşdu. Komandanın bu etimadını doğrultmaq üçün şəxsi heyət əlindən gələni əsirgəmədi və müsabiqədə fəxri ikinci yeri tutdu.

"Xəzər kuboku-2016"-da iştirak etmiş Azərbaycan hərbi dənizçilər qrupunun rəhbəri, birinci dərəcəli kapitan Sübhan Bəkirovun bu yarışlarda zəhmətini qeyd etmək yerinə düşərdi. Əslində, gəmilərin təmir edilərək texniki baxımdan hazırlanması işlərinə Hərbi Dəniz Qüvvələri komandanının müavini, "Xəzər kuboku-2016"-da iştirak etmiş Azərbaycan hərbi dənizçilər qrupunun rəhbəri, birinci dərəcəli kapitan Sübhan Bəkirov rəhbərlik edirdi. O, yarışlara gəminin və heyətin hazırlanması üçün görülən tədbirləri daim nəzarətdə saxlayır, ortaya çıxan cüzi çətinliklərin belə aradan qaldırılması üçün dərhal tədbir görürdü.

- "Xəzər kuboku-2016" müsabiqəsində iştirakımız Müdafiə naziri general-polkovnik Zakir Həsənovun daimi diqqətində idi, - birinci dərəcəli kapitan Sübhan Bəkirov deyir. - Bizimlə ilk görüşdə hörmətli nazirimiz demişdi ki, hər bir kiçik qələbə gələcək böyük qələbə üçün zəmindir. Bunu biz hərbi dənizçilər özümüz üçün deviz olaraq qəbul etmişik.

Qeyd etməyə dəyər ki, Hərbi Dəniz Qüvvələrində döyüş atışlarının keçirilməsi, hava və suüstü hədəflərin məhv edilməsi döyüş hazırlığının tərkib hissəsi kimi şəxsi heyətə öyrədilir.

Bununla belə müsabiqənin şərtlərini nəzərə alıb bir ay öncə Rusiyaya gedəcək hərbi dənizçilər sırf gəmi heyətinin hazırlığı ilə məşğul olublar. Sistematik olaraq onlar dənizə çıxmaqla artilleriya atışlarını icra ediblər. Gəmi heyəti dəniz poliqonlarımızda lövbər qoyaraq təyin olunmuş kursu təmin etmək məqsədilə məşqlər keçmişdilər. Şəxsi heyətin qarşıdakı yarışlara hazırlanmasına təcrübəli zabit Ömər Allahverdiyev xüsusi diqqət yetirirdi.

Kapitan-leytenant İlqar Əliməmmədovun da müsabiqədə iştirak edən G-124 gözətçi gəmisinin məharətlə idarə olunmasında, qonşu ölkədə hərbi dənizçilərimizin Azərbaycan Ordusunu ləyaqətlə təmsil etməsində rolu böyükdür. Müsabiqənin keçirildiyi günlərdə şəxsi heyətin yarışlarda yüksək əhval-ruhiyyə ilə iştirak etməsində dənizçi zabitimizin zəhməti çoxdur.

G-124 gözətçi gəmisinin zabiti baş leytenant İsrail Məmmədov da "Xəzər kuboku-2016" yarışlarında yüksək ustalıq nümayiş etdirdi. Göstərdiyi bacarıq və peşəkarlığa görə baş leytenant fərdi mükafata layiq görüldü.

G-124 gözətçi gəmisində komendorumuz miçman Namiq Sultanov idi. Təcrübəli atıcı döyüş əlaçısıdır. Onun şəkli qərargahdakı şərəf lövhəsini bəzəyir. Hərbi dənizçilərimiz sərrast atıcılıq qabiliyyətinə görə öz aralarında onu snayper adlandırırlar. "Xəzər kuboku-2016" müsabiqəsində müəyyən edilmiş məsafədən hava, suüstü hədəfin, üzən minanın məhv edilməsi ondan da asılı idi. Miçman Sultanov bu vəzifənin öhdəsindən məharətlə gəldi və komandaya vacib xallar qazandırdı.

Bir amili qeyd etməyə dəyər: gəmidə atışı yerinə yetir-



mək quruda atışı yerinə yetirməkdən daha çətindir. Suyun dalğalanması, gəminin tərpənişi, hədəfin yerdəyişməsi var. Hidrometeoroloji şərait nəzərə alınmalıdır. Əl ilə gəmidə atışı yerinə yetirmək avtomatik atışdan qat-qat çətindir. Komendor mişman Sultanov yüksək hazırlığa malik olduğundan öz vəzifəsinin öhdəsindən gəlməyi bacardı və artilleriya atışlarını dəqiqliklə yerinə yetirdi.

Gəmi komandirinin köməkçisi baş leytenant Pərviz Əmiyevin də adını çəkmək yerinə düşər. Gənc zabitimiz də bütövlükdə komandanın uğurunda özünəməxsus pay sahibidir.

Orada hərbi dənizçilərimizin göstərdiyi uğurlu nəticədə gəminin açıq dənizdə dalğalı şəraitdə verilmiş kursa uyğun saxlanması barədə ayrıca qeyd etməyə dəyər. Müsabiqədə həmin epizodda da bizim heyət birinci olmuşdu. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Cəmil Səfərov sükanı ustalıqla idarə etdi.

- Məsələn, iki nöqtə arasında kursa ən qısa yolla getmək lazımdır ki, az vaxt sərf edilsin, - zabit Ömər Allahverdiyev bildirir. - Dalğa həmişə gözləndiyinə görə gəmi yerini dəyişir. Əgər gəmi istiqamətini dəyişirsə, bu zaman daha çox vaxt sərf edilir. Ona görə sükançı o qədər hazırlıqlı və peşəkar olmalıdır ki, məsafəni qısa zaman ərzində qət edəsən. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Cəmil Səfərov öz vəzifəsinin öhdəsindən məharətlə gəldi.

Bosmanlardan Samir Yusifovun və Famil Kərimovun hər ikisi müsabiqənin keçirildiyi günlərdə komandaya olduqca gərəkli olmuşdular. Onlardan biri gəminin bak, yəni burun hissəsində, digəri isə yut, yəni arxa hissəsində çalışırdı. Gəminin lövbərə qoyulmasında və çəlləyə bağlanmasında onların zəhmətini qeyd etməyə dəyər.

Nəticədə bütün şəxsi heyət bir məqsəd ətrafında birləşərək mübarizə apardı, vahid komanda olaraq bu yarışlarda yüksək peşəkarlıqla çıxış etdi. Bir sözlə, Hərbi Dəniz Qüvvələrimiz digər ölkələrin hərbi dənizçiləri arasında ləyaqətlə təmsil olundu. Yüksək döyüş hazırlığı nümayiş etdirərək ikinci yeri tutmuş Azərbaycanın hərbi dənizçilərinə "Admiral-480" motorlu qayıq hədiyyə edildi. Komandaların iştirakçıları həmçinin medal və fəxri fərmanlarla mükafatlandırıldılar.

Elə buna görə də Rusiyadan qayıdan dənizçilərimiz hərbi hissədə yüksək təntənə ilə qarşılandılar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Sərkərdələr beşiyində Bilik bayramı

***Səhərdir. Günəşin üfüqdən boylanan şəfəqləri asta-asta ətrafa yayılır. C.Naxçıvanski adına Hərbi Liseyin həyəti əvvəlki günlərdən fərqli olaraq izdihamlıdır. Sıra ilə dalğalanan bayraqlar görənlərə xoş ovqat bağışlayır. Bu da təsadüfi deyil, 15 Sentyabr - Bilik Günü münasibəti ilə Hərbi Liseydə tədbir keçirilir.***



Mərasimdə, bir qayda olaraq, əvvəlcə rəsmi rituallar yerinə yetirildi. Şəxsi heyətin mərasimə düzüldüyü barədə Hərbi Liseyin rəisinə məruzə edildi. Polkovnik Rüfət Əmirov şəxsi heyətlə salamlaşdı, kursantları Bilik Günü münasibəti ilə təbrik etdi, onlara təhsillərində uğurlar arzuladı.



Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu. Hərbi Liseyin döyüş bayrağı təntənəli surətdə mərasim keçirilən meydana gətirildi.

Liseyin rəisi çıxışında hərbi təhsil ocağının tarixindən qısaca danışaraq bildirdi ki, Silahlı Qüvvələrimiz üçün zabit kadrlarının hazırlanmasında C.Naxçıvanski adına Hərbi Liseyin xüsusi yeri vardır. "Bu məktəb ümummilli liderimiz Heydər Əliyevin ölkəmizin ordu quruculuğuna ən mühüm töhfələrindən biridir. 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə yaradılmış bu təhsil ocağı gənc nəslin hərbi peşələrə yiyələnməsində əhəmiyyətli rola malikdir. Fəxrlə deyə bilərəm ki, mən də C.Naxçıvanski adına Hərbi Liseyin məzunuyam. Qazandığım təcrübə və peşəkarlıq üçün bu liseyə borcluyam. Nə qədər gəncə ilk həyat vəsiqəsini bu təhsil ocağı vermişdir."

Polkovnik R.Əmirov çıxışında onu da xüsusi olaraq qeyd etdi ki, Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı nəticəsində Cəmşid Naxçıvanski adına Hərbi Liseydə aparılan təmir-tikinti və yenidənqurma işləri tədrisin keyfiyyətini və şəxsi heyətin maddi-məişət şəraitini daha da yaxşılaşdıracaqdır.



Hərbi Liseyin müəllimi Laləzar Həsənova, valideyn Eldəniz Məmmədov və başqaları çıxış edərək Bilik Günü münasibəti ilə kursantları təbrik etdilər.

Kursantlar adından İrşad Sadıqov yoldaşları adından söz verdi ki, ordu üçün yaxşı zabit, ölkə üçün dəyərli vətəndaş olacaqlar.

Sonra gənc kursantlar sıradan irəli çıxaraq əllərini bir-birilərinin çiyinlərinə qoyaraq şərəf andı içdilər. Bu anlarda gözlərində böyük sevinc var idi. Onlar həyatlarının ən yaddaqalan anlarını yaşayırdılar. Övladlarının xoş anlarını izləyən valideynlərin də üzündən bəxtəvərlik duyulurdu.

Tədbirdə qonaq olan "Dədə Qorqud" Milli Fondunun prezidenti, "Azərbaycan Dünyası" jurnalının təsisçisi və redaktoru Eldar İsmayılov da gənc kursantları təbrik edərək uğurlar arzuladı.

**Vahid MƏHƏRRƏMOV**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 sentyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 8 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Hacıalılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Cəvahirli, Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Cəbrayıl rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## *Əks-səda*

# Təsəlli

Hörmətli redaksiya!

Qəzetinizin 3 sentyabr 2016-cı il tarixli sayında bir ziyalı qadının "Ana harayı" adlı müraciətini mən də həyəcanla oxudum. Hadisə mənə də təsir elədi.

Oğul böyüyür, hərbi xidmətə çağırılır, Vətəni qoruyur. Onun düşüncələrində ancaq Vətən olmalıdı, torpaq olmalıdı, hərbi xidmət olmalıdı. Digər hisslər, duyğular qadağan edilmir, amma bu deyilənləri zərrəcə unutmamalıdı.

O əsgər də hərbi and içmişdi. O əsgər də Vətəni göz bəbəyi kimi qorumağa söz vermişdi. On ay andına sadiq qalıb. Sonra... Sonra sevdasının əsiri olub. İradəsizliyi, həyata baxışının məhdudluğu intiharla nəticələnib.

O əsgər Vətəni də unudubmuş, əsgər olduğunu da, döyüş növbəsini də, işğalda olan torpaqlarımızı da. Ata-anasını da unudubmuş, bacı-qardaşını da. Oğluna görə xəcalət çəkən ananın harayını hamı eşitdi. Bu haray oğlunun ölümüylə bağlı olsa da, oğluna görə deyil, xidmətdə olan əsgərlərə görədi, onları qorumaq üçündü. Ana belə hadisənin təkrarlanmamasını istəyir. O ana müəllimdir. Şagirdlərinə ana qayğısıyla dərs deyib. "Şagirdlərimin üzünə necə çıxacam?" - fikri ananın dərdinin üstünə dərd gətirir. Səni başa düşürük, ana. Sən anasan. Çox sağ ol ki, özünə təpər tapıb əsgər analarına, əsgərlərə müraciət eləyibsən. Bu müraciət də orduya sayğının nəticəsidir. Sən ordumuza güvənmisən, bu itkidən sonra da güvənirsən. Oğlunun əsgər yoldaşları sənin arzuladığın kimi xidmət edəcək. Bu, sənə bir təsəlli olacaq.

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**



"Ana harayı"nı mən də oxudum. Çox təsirləndim. Azərbaycan Silahlı Qüvvələrinin bir əsgərini itirməsi məni də çox mütəəssir etdi. O hələ döyüş növbəsi aparacaqdı, xidmətinin sonunacan Vətəni qoruyacaqdı. Ananın məktubundan - müraciətindən aydın olur ki, oğlu on ay nümunəvi xidmət eləyib. Bu müddət ərzində güman ki, o da torpaqlarımızı işğaldan azad edəcək əsgərlərin sırasında olmaq istəyib! Ola bilmədi. İradə zəifliyimi deyək, hisslərə qul olmamı deyək, ali hissləri yaddan çıxardıb duyğuların oduna düşməkmi deyək, hər nədirsə, o ananın əsgər oğlu öz əliylə öz ömrünə qıyıb.

Ana oğul itirib. Ananın dərdi başa düşüləndi. O ananın ürəyinin böyüklüyünə heyrətlənirəm. Bu intihara görə heç kimi ciddi qınamır, suçlamır, sadəcə gileylənir. Bu gileydə bir ana ərki var. Ana oğlunun əsgər yoldaşlarını ərklə qınayır. Ana həm də bu intihara görə xəcalət çəkir. Müəllim yoldaşlarının, şagirdlərinin üzünə baxacağının sıxıntısından üzülür. Bir kəlam yadıma düşür: "Ölüm var ölüm kimi, ölüm var zülüm kimi".

O ana ağrı-acıdan söz açmır, əsgər oğullara müraciət eləyir. Belə hallar olmasın deyə müraciət eləyir. Bu müraciət ona görə haraydı, ana harayıdı. Ona görə o ananın harayına hay veririk.

Olan oldu. Olmamalıydı, sən bu müraciətinlə ordumuzu sevdiyini, əsgərlərimizi sevdiyini, Vətənimizi sevdiyini təsdiqlədin...

**Gülsürə HÜSEYNOVA,**
**Bakı şəhəri**

# Qazaxda ilk azərbaycanlı hərbi pilotun xatirəsinə təyyarə abidəsi ucaldılıb



*Qazax rayonunda ilk azərbaycanlı hərbi pilot, Birinci Dünya müharibəsinin iştirakçısı Fərrux ağa Qayıbovun xatirəsinə ucaldılan təyyarə abidəsinin açılışı olub.*

AZƏRTAC xəbər verir ki, tədbiri rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov açaraq Fərrux ağa Qayıbovun keçdiyi şərəfli döyüş yolundan, göstərdiyi şücaət və qəhrəmanlıqlardan danışıb. Bildirib ki, F.Qayıbov 1916-cı il sentyabrın 12-də Qərb cəbhəsi qərargahının tapşırığı ilə Bornaya hücuma keçib, almanların mövqelərini darmadağın edərək külə döndərib. Onun təyyarəsinə hücum edən 4 alman qırıcısından üçünü partladıb. Lakin öz təyyarəsi də aldığı zərbədən yerə çırpılıb və igid pilot qəhrəmancasına həlak olub. Azərbaycanlı təyyarəçinin igidliyinə heyran qalan almanlar F.Qayıbovun nəşini onlara məxsus ərazidə göstərdiyi igidliyə layiq şəkildə, ehtiramla dəfn ediblər.

Çıxış edənlər Fərrux ağa Qayıbovun keçdiyi döyüş yolundan, müharibədə göstərdiyi qəhrəmanlıqlardan ağızdolusu danışıblar.

Sonda rayonun Yuxarı Salahlı kənd tam orta məktəbinin şagirdləri kompozisiya təqdim edib, hərbi vətənpərvərlik ruhunda şeirlər səsləndiriblər.



*Gənc zabitlərimiz*

# Fədakarlıq tələb edən peşə

*Hər peşənin özünəxas çətinlikləri, özəl xüsusiyyətləri vardır, amma zabit peşəsi hamısından fərqlidir. Bu peşə vətənpərvər, fədakar insanların seçə biləcəkləri bir sənətdir. Həmişə düşmənlə təmas xəttindəki hərbi bölmələrimizdə ömrünün yeniyetmə çağlarından bu peşəyə ürəkdən bağlanmış gənc zabitlərlə tanış olmaqdan fərəh duyuram. Axı hərbçi olan şəxs Vətəni qorumaq peşəsini seçməkdə qərarlı olan fərqli vətəndaşımızdır. Vətən sevgisi belələrinin qəlbində dərin kök atıb.*



Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin qərargahında gənc zabitlərimiz haqqında da qeydlər götürəcəyimi bildirəndə, ucqar döyüş bölmələrindən birində xidmət edən baş leytenant Cavidan Əsədovun adını iftixarla çəkdilər. Bir neçə saatlıq yol qət edib onun komandiri olduğu bölməyə çatırıq. Burada ilk addımdan hiss etdiyim işgüzar mühit, səliqə-sahman, nizam-intizam komandirin bacarlqlı və səriştəli olmasından soraq verir.

Döyüş postlarını gəzdikdən sonra üzündə məğrurluq, vətənpərvərlik nişanələri hiss edilən zabit məni dağ otlarından dəmlənmiş əsgər çayına qonaq edir. Öyrənirəm ki, Oğuz rayonundan olan müsahibim 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini motoatıcı zabit ixtisası üzrə bitirib.

- Zabit olmağa qərar verəndə hamıdan çox anam sevindi, - deyə baş leytenant Cavidan Əsədov söhbətə başlayır. - Anam dedi ki, Vətəni qorumaq peşəsini seçmək yalnız mərd oğulların işidir. Ailəmizdə hərbçi olmayıb, amma ölkəmizin üzləşdiyi müharibə şəraiti məni bu peşəni seçməyə sövq edib. Fikrimcə, əsl vətəndaş mənsub olduğu dövlətin, xalqın ağrı-acılarını yaşamalıdır.

- Ali hərbi təhsilini başa vuran kimi cəbhə bölgəsinə taqım komandiri təyin edilməyin sənə çətin gəlmədi ki?

- Xeyr. Əslində, hər kəs ürəkdən seçdiyi peşənin çətinliklərinə sinə gərməyi bacarmalıdır. Yaxşı bilirdim ki, məni qarşıda mülki həyatdan fərqli olan çətinliklər gözləyəcək, amma sənətimə olan sevgim hər şeyə qalib gəldi.

Gənc zabit haqlıdır, əgər bir peşənin ürəkdən vurğunu olursansa, bu yolda qarşılaşdığın çətinliklər adamı qorxutmur. Bir dəfə televizorda mərhum aktyorumuz Yaşar Nurinin tələbələrlə görüşünə baxırdım. Tələbələrdən biri sənətçidən soruşdu ki, səhnə həyatı ailənizdə necə qarşılanır? Yaşar müəllim bir qədər gülümsünüb dedi ki, həyat yoldaşımla əhd-peyman bağlayanda ona ilk öncə sənətimə hörmət etməyi bildirdim və o da razılaşdı. Elə buna görə də ömür-gün yoldaşı ilə son günə qədər yol gedib, bəlkə də həmin qadın aktyorun sənətinə vurğun olmasaydı, Yaşar müəllim məşhur bir səhnə ustası kimi həyatda şöhrət tapmazdı.

Peşəsinə olan sonsuz sevgisi baş leytenantın qısa zaman ərzində uğur əldə etməsinə, komandanlığın etimadını qazanmasına səbəb olub. Əlbəttə, başqa amillər də onun bir hərbçi kimi yüksəlməsində əhəmiyyət kəsb edib. Yaxşı olar ki, yenə zabitin düşüncələrinə yer verək.

- Bir dəfə hərbi məktəbdən bizi hərbi hissəyə, təcrübə-sınaq aylığına aparmışdılar, - deyir baş leytenant. - Burada təcrübəli zabitlərlə tanış oldum, bir bölük komandirinin isə əsgəri heyətdə olan hörməti mənə xoş ovqat aşıladı. O da mən bitirdiyim təhsil ocağını bir neçə il əvvəl başa vurmuşdu. Həmin zabitin çox qısa vaxtda qazandıqlarını götür-qoy edəndə səbəbini onun özündən soruşmağı qərara aldım. Zabit yaxşı bir söz dedi: "Güclü komandir olmaq üçün tabeliyində olan əsgərin hər birinin hörmətini, inamını qazanmalısan. Bu, asan məsələ deyil. Sən bütün bacarığını, idarəçilik qabiliyyətini sübuta yetirməlisən. Səhər-axşam sıra düzülüşündə şəxsi heyətin qarşısında dayanmağa mənəvi haqqın olmalıdır".

Müsahibimin söhbəti məni iki il əvvələ, Müdafiə nazirimizin xüsusi təyinatlı təhsil müəssisələrini yenicə bitirmiş kursantlarla keçirdiyi bir görüşə qaytardı. Qəzetimizə material hazırlamaq üçün həmin tədbirdə iştirak edirdim. Nazir gələcəyin zabitləri ilə olduqca səmimi söhbət apardı, özünün də kursantlıq dövründən maraqlı epizodlar danışdı. Ümummilli liderimiz Heydər Əliyevin "Kiminsə Azərbaycan Ordusunda xidmət etməsi özünün şəxsi mənafelərini təmin etmək məqsədi daşıyırsa, belələrini aşkar etmək, ordudan uzaqlaşdırmaq lazımdır. Azərbaycan zabiti gərək yüksək mənəviyyata malik olsun, Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, Vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın" sözlərini kursantlara xatırladan general-polkovnik Zakir Həsənov zalda əyləşən zabitlərə üz tutaraq dahi rəhbərimizin tövsiyələrinə layiqincə əməl etməyi, Vətənə və xalqa xidmətdən ibarət olan böyük ömür yolundan nümunə götürməyi tapşırdı. Nazirin bir tövsiyəsi də ondan ibarət idi ki, zabit komandiri olduğu heyətə şəxsi nümunə olmağı bacarmalıdır. Şübhəsiz, kollektivdə nümunə olmaq üçün bütün mənəvi dəyərlərə sadiqlik nümayiş etdirməlisən.

Baş leytenantla söhbətimin sonunda yenə səngərlərə üz tuturuq. Burada döyüş növbəsində dayanan oğullar isə onun tabeliyində olan şəxsi heyətin bir qismidir. Hər döyüşçünün sifətində hiss edilən məğrurluq, Vətənə, torpağa bağlılıq isə məni bayaqdan söhbətləşdiyim gənc zabitin peşəkarlığına inandırmaya bilməzdi. Bu yerdə bir həqiqətə tapındım: gənc yaşda belə peşəkarlığı qazana bilən zabitin uğurları hələ qarşıdadır!

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu", foto M.MÖHBALIYEVİNDİR**

*Əsgərin tribunası*

# Heç vaxt unudulmaz əsgər dostluğu

*Məktubumu "N" hərbi hissəsinin 3 min metrdən çox yüksəklikdə yerləşən döyüş postundan yazıram. Bu gün bizim yanımıza "Azərbaycan Ordusu" qəzetinin müxbirləri gəliblər. Bu çətin dağ yollarını aşıb görüşümüzə gələn müxbirlər öz söhbətləri ilə bizə xoş hisslər aşılayırlar. Onlarla görüşdən ruhlanıb redaksiyaya məktub göndərmək qərarına gəldim.*



Hərbi xidmətə Xaçmaz rayonundan çağırılmışam. Tuşlayıcı ixtisası üzrə xidmət edirəm. Rusiyada Ədliyyə Akademiyasını bitirmişəm. Təhsilimi başa vurduqdan sonra ən böyük arzum hərbi forma geyib Vətənə borcumu yerinə yetirmək idi. Məni xidmətə yola salan atam xeyir-duasını verib "Vətənimizə layiqli əsgər ol. Şərəflə xidmət et, komandirlərinin sözündən çıxma" demişdi. Hərbi andiçmə günündə Vətənə sədaqət andı içdik. Artıq arzuma çatmışdım. Azərbaycan əsgəri olmağın sevincini yaşayırdım. Və təlim müddəti bitdikdən sonra tuşlayıcı əsgər kimi döyüş postunda xidmətə yollandım. Bura gəldiyim ilk gündən çox qürurluyam. Mərd Vətən oğulları ilə bir sırada, ön xətdə xidmət etməkdən şərəf duyuram. Xidmətimin ilk günlərindən nümunəvi əsgər olmağı özümə söz verdim. Artıq 11 aydır ki, xidmət edirəm. Bu aylar mənə bir çox üstün keyfiyyətlər qazandırıb. İlk öncə peşəkar komandirlərimizdən döyüş sirlərini, silah və texnikalarla davranma qaydalarını öyrənmişəm. Bundan başqa hərbi xidmət bizə dözümlülük, Vətənə bağlılıq, düşmənə nifrət hissləri, nizam-intizamlı olmağı aşılayır. Hərbi xidmətdə həm döyüşçü kimi, həm də cəmiyyətə yararlı vətəndaş kimi yetişirik.

Həyatda ən sadiq və möhkəm dostları da əsgərlik dövründə qazanırıq. Belə dostlarımdan Rəhman Şərbətovu, Mirhəbib Həsənlini deyə bilərəm. Sən bilməlisən ki, döyüşdə canını əsgər yoldaşına, silahdaşına əmanət edirsən, onunla çiyin-çiyinə döyüşürsən. Düşmən gülləsindən yaralandıqda səni xilas etmək üçün canını təhlükəyə atan əsgər yoldaşının çiyinlərində xilas olursan, ya da onun qollarında şəhidlik məqamına ucalırsan. Ona görə də əsgərlik dostluğu ən sadiq və ən möhkəm dostluqdur.

Bizim post düşmənlə yaxın məsafədə yerləşir. Burada ölkəmizin müxtəlif bölgələrindən gələn əsgərlər xidmət edirlər. Müqəddəs bir amal - Vətəni qorumaq məqsədi ilə möhkəm birləşərək, ayıq-sayıq xidmət edir, yurdumuzu göz bəbəyi kimi qoruyuruq. Səngər həyatı çətin olsa da, bu çətinliklərin öhdəsindən mərdliklə gəlirik. Hər birimiz səngərdə xidmət etməkdən qürur duyuruq. Vətənin keşiyində mərdliklə dayanır, düşməndən qorxmuruq. Əksinə, hər an Ali Baş Komandanın əmrini gözləyirik.

Artıq xidməti başa vurub doğmalarımın yanına qayıtmağıma az qalıb. Əsgər yoldaşlarımdan, valideyn qayğısı gördüyüm komandirlərimdən ayrılacağım üçün kədərlənirəm. Hərbi xidmət keçən hər bir gənc üçün xidmət etdiyi bölmə ona ailəsi kimi doğmadır. Bu döyüş postu da bizim evimiz, ailəmizdir. Kiçik qardaşım Elşadın da Azərbaycan əsgəri olacağı günü səbirsizliklə gözləyirəm. Və ən böyük arzum odur ki, torpaqlarımızı tezliklə işğaldan azad edək.

**Əsgər**
**Əhməd ƏHMƏDLİ,**
**"N" hərbi hissəsi**

# İşğalçı ordunun və erməni əhalisinin vəziyyətini ən yaxşı Ermənistan mətbuatı əks etdirir





*Tarixi hadisələrdən zaman çox ötdükcə, real baş verənlər yaddaşlardan silindikcə, həmin hadisələr əfsanələrə çevrilir və müxtəlif uydurmalarla əhatə olunur.*

Bu tendensiya aprel döyüşlərindən keçən müddətdə erməni tərəfinin verdiyi açıqlamalarda da daha qabarıq əks olunub. 2016-cı ilin aprelində məğlub duruma düşən Ermənistanda siyasi liderlərdən tutmuş ən sadə və siyasətə heç bir aidiyyəti olmayan, hərbdən belə başı çıxmayan müxtəlif peşə sahibləri "qələbə" dolu "qəhrəmanlıq" açıqlamaları səsləndirirlər. Bəzən bu çıxışlar o qədər absurd, ağılasığmaz və qeyri-real olur ki, buna cavab verməmək mümkün deyil.

Nikol Paşinyan adlı "saxta müxalifətçi lider"in Dağlıq Qarabağa səfərdən qayıtdıqdan sonra erməni kriminal hərbi-siyasi rejiminin uğursuzluqlarını ört-basdır edən fikirlərlə mətbuatda çıxış etməsi onun hakimiyyətdən "molodes" qazanmasına səbəb oldu. Erməni hərbçilər aprel döyüşləri zamanı işğalçı ordunun və separatçı dəstələrin "qəhrəmanlığından, alternativ rabitə vasitələrindən istifadə edərək qələbələr əldə etmələrindən" Paşinyana o qədər nağıllar danışdılar ki, cuşa gələn deputat söhbətin nədən getməsindən anlayışı olmadan erməni ordusunun şöhrətini göylərə qaldırmağa uğursuz cəhd etdi.

N.Paşinyanın işğal altında olan ərazilərdə və qoşunların təmas xəttində gördüyü "nəhəng işlərdən", alternativ silahlardan, rabitə sistemlərindən, kəşfiyyat və müşahidə vasitələrindən danışması da gülünc görünür. Hərbdə alternativ ifadəsi səslənəndə ilk ağıla gələn göyərçin, baraban, tonqal, dəyənək, yaba balta və s. istifadəsi düşür. Bunlardan da min illər əvvəl istifadə edilib. Şahidi olduq ki, aprel döyüşlərində erməni ordusunun düçar olduğu uğursuzluq, məğlubiyyət, verdiyi itkilər erməni ordusunun necə "müasir" olmasını əyani nümayiş etdirdi.



Digər cinayətkar və quldur dəstəsinin başçısı Levon Mnasakanyanın erməni ordusunun "ən müasir dəhşətli silahlara malik olması", ön xəttin ən yeni texnologiyaların istifadəsi ilə gecəgörmə cihazları və müşahidə kameraları ilə təchiz edilərək möhkəmləndirilməsi fikirləri onların əlçatmaz xülyalarından başqa bir şey deyil. Artıq erməni xalqı çox gözəl anlayır ki, hərbi-siyasi rejim Ermənistan ordusu üçün hər ötən gün yeni silahların alınmasından və texnologiyaların tətbiqindən dəm vurmaqla yalnız özlərini aldatmaqla məşğuldur.

Bu açıqlamalardan bir neçə gün sonra Ermənistanın kütləvi informasiya vasitələrində ön xətdə erməni əsgərlərin xidmətindən və cəbhəboyu zonada məcburi məskunlaşdırılan insanların həyatından bəhs edən fotoreportajlar real vəziyyətin nədən ibarət olduğunu növbəti dəfə əks etdirdi. Həmin yazılara və fotolara heç bir şərh vermədən diqqətinizə təqdim edirik.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Hərbi idmançılarımız Makedoniyada Beynəlxalq yarışlarda iştirak edəcəklər

*Sentyabrın 19-25-dək Makedoniyada Beynəlxalq Hərbi İdman Şurasının himayəsi altında Güləş üzrə hərbçilərin 31-ci Dünya Çempionatı keçiriləcək. Yarışlar yunan-Roma və sərbəst güləş növləri üzrə olacaq. Hərbçilərin Dünya çempionatına Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Rəşad Quliyevin rəhbərliyi ilə 21 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti də qatılacaqdır.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğı ordu idmanının inkişafına da öz müsbət təsirini göstərib. Bunun nəticəsində Azərbaycan hərbi idmançıları beynəlxalq idman arenalarında ölkəmizi şərəflə təmsil edərək yeni-yeni uğurlar əldə ediblər.

Xatırladaq ki, Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu 1995-ci ildən Beynəlxalq Hərbi İdman Şurasının (CİSM) fəal üzvüdür. Mərkəzi Ordu İdman Klubunda 15 idman növü üzrə bölmələr fəaliyyət göstərir və bu bölmələrdə bütün yaş qrupları üzrə məşqlər keçirilir. Azərbaycan milli yığma komandasının əksər üzvləri Mərkəzi Ordu İdman Klubunun təmsilçiləridir. Olimpiya, Dünya, Avropa və digər beynəlxalq yarışlarda medalların qazanılmasında Mərkəzi Ordu İdman Klubu idmançılarının da əməyi danılmazdır.

Beynəlxalq Hərbi İdman Şurasının xətti ilə keçirilən beş Ümumdünya Hərbi İdman Oyunlarında və hər il keçirilən dünya çempionatlarında hərbi idmançılarımız uğurla çıxış edərək 300-dən çox medal qazanıblar.

İdman yarışlarında fəal iştirak edən Azərbaycan Respublikası Beynəlxalq Hərbi İdman Şurasına üzv olan 130 dövlət arasında 11-ci, MDB dövlətləri arasında isə 2-ci yerə layiq görülüb.

Məhz ölkə rəhbərinin Azərbaycan idmanına göstərdiyi qayğı və dəstəyini, o cümlədən Azərbaycan nümayəndə heyətinin mütəmadi, uğurlu çıxışlarını nəzərə alaraq, Beynəlxalq Hərbi İdman Şurasının qərarı ilə 2004-cü ildə Cüdo, 2006-cı ildə Sərbəst və yunan-Roma güləşi, 2008-ci ildə Boks üzrə hərbçilərin dünya çempionatı, 2010-cu ildə Cüdo üzrə Dünya çempionatları və 2013-cü ildə hərbçilər arasında ilk Dünya Futbol kuboku Bakı şəhərində keçirilib.



Beynəlxalq Hərbi İdman Şurasının xətti ilə keçiriləcək növbəti 31-ci dünya çempionatına inamla hazırlaşan idmançı zabit, gizir və qulluqçular, eləcə də idman fəalları respublikamızın ən mötəbər idman federasiyalarında təlim-məşqlər keçiriblər. İnanırıq ki, yarışlara ciddi hazırlaşan hərbi idmançılarımız ölkəmizi layiqincə təmsil edərək medallar qazanacaq və hamımızı sevindirəcəklər. Hərbi idmançılarımıza uğurlar diləyirik.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Hərbi yeniliklər, ənənələr

## "Tor" zenit-raket kompleksi

9K330 "Tor" zenit-raket kompleksi döyüşlər zamanı hərəkətdə və marşda olan qoşunları düşmənin hava hücum vasitələrindən müdafiə etmək üçün istismara buraxılıb. Rusiyada quru qoşunların silahlanmasına 1986-cı ildə qəbul edilib.



"Tor" kompleksi məhvetmə vasitələri ilə birlikdə yüksək keçidli tırtıllı şassidə yerləşdirilib. Döyüş maşınının tərkibinə hədəfləri tanıma, tuşlama sistemi, buraxıcı qurğular daxildir. Maşının səkkiz ədəd idarəolunan raketi vardır. Göstərilənlərdən başqa maşının tırtıllı şassisində qazturbinli və təkrarlanan qidalanma aqreqatı da quraşdırılıb. Yanacaq üzrə onun ehtiyat hərəkəti 500 kilometr, şassi üzrə sürəti saatda 656 kilometrdir. Döyüş maşınının radiolokasiya sistemi 48 ədəd hava hədəflərini birdən aşkar edə bilər. Komandirin indikatorunda hava hədəfləri oxlarla birlikdə nöqtə qismində işıqlandırılır. Onun radiolokasiya sistemi 25-27 kilometr uzaqlıqda qırıcı təyyarələri, 13-20 kilometr uzaqlıqda isə helikopterləri aşkar etməyə qadirdir.

9M330 "Tor" kompleksinin zenit idarəolunan raketi qatyanacaqlı, bir pilləlidir. Start çəkisi 165 kiloqram, döyüş çəkisi 14.5 kiloqram, raketin uzunluğu 2.898 mm, korpusun diametri 235 mm, qanadlarının açılması 650 mm təşkil edir. Mühərriki 840 at gücündədir.

Raket yüksək enerjili radioportlayıcı və ya mərmi-fuqas döyüş hissəsinə malikdir. O, qoşunların tərkibinə tam təchiz olunmuş halda verilir. Raket iki hissədən ibarətdir: burun və arxa. Burun hissəsində bort cihazlanması və döyüş təchizatı, arxa hissəsində isə qatıyanacaqlı mühərrik və qanadlı blok yerləşdirilib.

"Tor" zenit-raket kompleksinin idarə edilməsi elektron hesablama maşını ilə həyata keçirilir. Bu da kompleksə minimal vaxtda hava hədəflərini aşkar etməyə imkan verir.

## "Albatros" reaktiv-amfibiya təyyarəsi



"Albatros" - dünyada ən iri reaktiv-amfibiya təyyarəsidir. Bu təyyarə "soyuq müharibə"nin ən qızğın dövründə yaranıb və okeanların müxtəlif nöqtələrində günün bütün vaxtlarında verilən tapşırıqları icra etməyə qadirdir. "Albatros" bir və ya iki torpeda ilə asanlıqla raket daşıyıcılarını məhv edə bilir.

Ən iri reaktiv A-40 "Albatros" amfibiya təyyarəsi 1983-cü ildə SSRİ-də Beriya adına konstruktor bürosunda hazırlanıb. Qısa müddət ərzində bu maşınla geniş su ərazilərində müşahidə aparmaq, sualtı qayıqları aşkarlamaq və onları məhv etmək olar. Hidrotəyyarənin uçuş çəkisi 86 ton, sürəti saatda 800 kilometr, atəş uzaqlığı isə 5500 kilometrə qədərdir. Açıq dənizdə dalğanın iki metr hündürlüyündə belə dənizə enə bilər. Onun güc qurğusuna iki marş və iki reaktiv mühərrik daxildir. Təyyarə radiolokator, hidroakustik stansiya, maqnitometr, pilotnaviqasiya kompleksi və cihazlanma ilə yanaşı, axtarış-nişangah sistemi ilə də təchiz olunub.

A-40 "Albatros" təyyarəsi üçün müasir elmi-texniki proqram çərçivəsində iki altı yerli, mühərrikli qayıqları və 68 nəfəri daşımağa hesablanmış xilasetmə-axtarış variantı da hazırlanıb.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## PKK tərəfdarları Türkiyədə ağır terror törədib



PKK terrorçularının sentyabrın 15-də gecə saatlarına doğru Türkiyənin Ağrı bölgəsindəki kəndlərə silahlı hücumu nəticəsinə 1-i hərbçi, 7-si kənd qarovulu olmaqla 8 nəfər şəhid olub.

Rəsmi məlumata görə, bu hücumlarda yaralanan 4 hərbçi və 2 mülki vətəndaş xəstəxanalara çatdırılıb. Bölgəyə əlavə təhlükəsizlik qüvvəsi göndərilib.

## Sinqapurda Zika virusuna yoluxanların sayı 355 nəfərə çatıb



Sinqapurda daha 14 nəfər Zika virusuna yoluxub. Hazırda ölkə ərazisində bu virusa yoluxanların sayı 355 nəfərə çatıb. Bu barədə Sinqapurun Səhiyyə Nazirliyi məlumat yayıb.

Xəstəliyin ocaqları ölkənin yeddi rayonunda müəyyən edilib.

## Britaniyada yeni atom elektrik stansiyası tikilir



Britaniya hökuməti milli təhlükəsizliyin qorunması məqsədi ilə ölkə ərazisində 18 milyard funtsterlinq dəyərində yeni atom elektrik stansiyasının tikintisinə icazə verib.

Stansiya Somerest bölgəsində Bristol kanalının sahilində tikiləcək. İnşaat işləri Çin və Fransanın birgə maliyyə dəstəyi ilə aparılacaq.

Tikinti işlərini həyata keçirəcək Fransız enerji şirkəti EDF-dən verilən açıqlamada bu qərarın bütün Avropa üçün faydalı olacağı bildirilib.

## "Uber" pilotsuz taksi buraxacaq



ABŞ-ın Pensilvaniya ştatının Pittsburq şəhərində "Uber" taksi xidmətinin müştərilərinə pilotsuz avtomobillər xidmət göstərəcək.

Avtomobilin avtopilot rejimində olmasına baxmayaraq, şirkətdə sürücünün təhlükəsizlik baxımından vacibliyini hesab edirlər. Belə ki, sürücü yolda vəziyyətə nəzarət edəcək. Şirkətdə hesab edirlər ki, yeni layihə bir sıra üstünlüklərə malikdir. O, qəzaların sayını azaltmağa kömək edəcək.

Əvvəlcə "Uber"in bu xidməti yalnız hava limanına gedənlərə, bir neçə aydan sonra isə bütün şəhər üzrə müştərilərə xidmət göstərəcək.

## Yunanıstan Avropa Komissiyasından 115 milyon avro yardım alıb



Avropa Komissiyası qaçqınların şəraitinin yaxşılaşdırılması məqsədilə Yunanıstana 115 milyon avro dəyərində təcili yardım ayırıb. Bu vəsait qaçqınların məskunlaşdıqları yerlərin təmirinə və yeni yaşayış məntəqələrin inşa edilməsinə xərclənəcək. Bundan əlavə yunan hökuməti qaçqınların təhsil proqramı və Yunanıstana valideynsiz gələn uşaqlara dəstək üçün yardımdan istifadə etməlidir.

Avropa Komissiyasının humanitar məsələləri üzrə üzvü Xristos Stilianides yardımın qış fəslindən əvvəl verilməsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Qeyd edək ki, ötən il Yunanıstana Yaxın Şərq ölkələrindən 850 min qaçqın gəlib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

Ovqat

# Qürurdan doğan sevinc



*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursantların andiçmə mərasimindəyəm...*

Bu necə görüşdü?

Bacının qolları qardaşının, qardaşın qolları bacının kürəyində çarpazlaşıb. Bacının göz yaşları qardaşının, qardaşın göz yaşları bacının kürəyini isladır. Ötənlər-keçənlər ayaq saxlayır. Görənlər duyğulanır.

Bu necə görüşdü? Bu necə sevgidi? Bu necə ehtiramdı?

Qardaş hərbi mundirdədi, kursantdı, sevdiyi-seçdiyi yolun başlanğıcındadı. Bu gün hərbi and içib. Az sonra öyrənəcəm ki, Mingəçevirdəndilər.

Yerə-göyə sığmayan sevgisinə aydınlıq suyudu göz yaşları. Sevinci kükrəyib, ürəyi bu biçim sevincə darlıq eləyir elə bil. Arada başını azca qaldırır. Bir qədər geri çəkilir, qardaşını gözdolusu süzür. Hönkürür, yenə qolları qardaşının kürəyində çarpazlaşır...

Bu sevinc qürurdu, bacı hıçqırıq içində "Qardaşımla qürurlanıram!" - deyir...

Bu, hərbi mundirə ehtiramdı, bacı hıçqırıq içində "Qardaşımla fəxr edirəm!" - deyir...

Qardaşını hərbi mundirdə görüb sevinir, hərbçi olduğuna sevinir. Çox sevinir...

Doğma yurd-yuvasından uzaq-uzaq düşənlərin ağrı-acısıdı o bacının gözlərindən süzülən, yanaqlarını yandıran, qardaşının hərbi mundirinə düzülən göz yaşları, hıçqırıqları şəhid bacılarının fəryadıdı, atasızlıq sıxıntısı çəkən şəhid övladlarının ürək göynərtisidi... O ağrıacı, o fəryad, o ürək göynərtisi ümidini hərbi mundirlilərə, bu gün hərbi and içən kursantlara bağlayıb, onlardan nicat umur. Azərbaycan zabitinə, Azərbaycan əsgərinə, gələcəyin zabitinə - kursantlara inanır. İnanır ki, qurtuluş, nicat əsgəridi onlar. Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan onlar azad edəcəklər. Bu qələbə şəhid bacısına, şəhid oğluna, şəhid anasına təsəlli olacaq. O torpaqlarda bulaqlar bulaq kimi açacaq, güllər güllər kimi açacaq, yellər yellər kimi əsəcək, şimşəklər şimşək kimi çaxacaq. Onda qollar qalib əsgərlərin kürəyində o qədər mehri-məhəbbətlə, o qədər ehtiramla, o qədər sevgilərlə çarpazlaşacaq ki!..

Ağlama, qızım, ağlama! Bu sevincdən də böyük sevincin (sevinciniz) olacaq. Qalib qardaşının qalib qardaşlarına Cıdır düzündə, İsa bulağında beləcə sarılacağın günə saxla göz yaşlarını. Onda sevincin (sevinciniz) yeri göyə dikələcək, göyləri yerə ələyəcək!..

Qardaşının ömrünə yazılan dəqiqələrdi...

Sənin, mənim ömrümüzə yazılan dəqiqələrdi...

Cıdır düzündə, İsa bulağında məmləkətimizin ömrünə yazılacaq dəqiqələrin təşnəsiyik...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

Maraq dünyamız

# Tarixdə ən güclü imperiyalar

*Dünyanın ən güclü imperiyaları hansılardır? Ümumiyyətlə, beş min il ərzində yaranmış yüzlərlə imperiya arasından beşini necə seçmək olar? Bəzi imperiyalar o qədər güclü və nüfuzlu olublar ki, onlar möhtəşəm imperiya adlandırılmağa layiqdir.*

## Əhəmənilər imperiyası

Təxminən e.ə. 550-ci ildə bu imperiyanın əsası şahənşah, yəni şahlar şahı ləqəbini daşıyan Böyük Kir tərəfindən qoyulub. E.ə. 330-cu ildə Makedoniyalı İsgəndər tərəfindən Əhəmənilər imperiyasına son qoyulsa da, imperiyanın davamlı irsi gələcək imperiyaların inkişafında özünü göstərib.

Yaxın Şərqin əksər ərazilərini idarə edən Əhəmənilər imperiyasında əhalinin sayı təxminən 49.4 milyon idi, bu da həmin vaxt dünya əhalisinin 44 faizini təşkil edirdi. Əhəmənilər imperiyası Yaxın Şərq, Şimali Afrika, Mərkəzi Asiya, Hindistan və Aralıq dənizi bölgələrini birləşdirən ilk imperiyadır.

Bu imperiyanın hərbi nailiyyətləri Makedoniyalı İsgəndərin buraya zəfər yürüşündən sonra süquta uğradıldığına görə çox vaxt unudulsa da, bu nailiyyətlər əhəmiyyətli idi. İmperiya apardığı əməliyyatlar nəticəsində babillilər, lidiyalılar, misirlilər və indi Pakistan ərazisi olan şimal-şərqi hindu regionu daxil olmaqla, dünyanın inkişaf etmiş sivilizasiyalarının əksəriyyətini özünə tabe etməyi bacardı.

## Roma imperiyası

Bu imperiyanın gücü yəqin ki, hamıya məlumdur. Roma imperiyası qərb aləmində uzun müddət ən mükəmməl imperiya olub, həqiqətən də tarixin ən möhtəşəm imperiyalarından biridir. Romalılar yüz, hətta min illərlə böyük əraziləri ələ keçirə bildiklərini göstəriblər. Ancaq imperiyanı saxlayan təkcə güc tətbiqi deyildi; işğal edilən ərazilərdə insanlar romalı "olmaq" üçün can atırdılar, çünki bu, inkişaf etmiş, mədəni, klassik bir mədəniyyətin üzvü olmaq demək idi.

Müasir dünyanın bir neçə önəmli xüsusiyyəti Roma imperiyasından qalıb. Romalılar yunan memarlığını, fəlsəfəsini və elmini gələcək nəsillərə ötürüblər. Daha sonra xristianlığın Romada qəbul edilməsi bu dini kiçik bir təriqət səviyyəsindən dünyanın ən böyük dinlərindən biri səviyyəsinə qaldırdı.

Roma hüququ qərb ölkələrinin bütün hüquqi sistemlərinə təsir göstərdi. Buradakı qurumlar isə müasir demokratik hökumətlərin idarəetmə sistemlərini canlandırmağa kömək etdi. Yunanıstanın ""demokratiyanın yarandığı yer" reputasiyasını qazanmasına baxmayaraq, dünya sivilizasiyasına əsasən Roma demokratiyası təsir etmişdi.

Romalılar əzmli bir xalq olub. Onlar ağla sığmayan çətinliklərə baxmayaraq bir çox uğursuzluqlardan sonra özlərini ələ ala və düşmənlərini məğlub edə bilirdilər. Karfagen sərkərdəsi e.ə. 216-cı ildə baş verən Kann döyüşündə romalıları dəmək olar ki, məhv etmişdi, ancaq romalılar Karfagenə ordu çıxara bildilər və düz on dörd ildən sonra qalib oldular. Romalılar hərbi cəhətdən əsrlərlə üstünlüklərini saxladılar, bu da Romaya yüz illərlə Aralıq dənizi və Yaxın Şərq regionlarında nüfuzunu qoruyub saxlamağa imkan verdi. İmperiyanın süquta uğramasının səbəbi isə davamlı böhran və vətəndaş müharibəsi ilə əlaqədar idi. Beləliklə, Roma imperiyası e.ə. 1453-cü ilə qədər mövcud olub və Roma dövlətinin siyasi tarixində iki min illik iz qoyub.

**Hazırladı:**
**çavuş**
**Rəşad ƏMRAHOV**

# İdman

## Azərbaycan üzgüçüsü Roman Saley "Rio-2016"-da ilk medalını qazanıb



Azərbaycan üzgüçüsü Roman Saley Rio-de-Janeyroda təşkil olunan XV Yay Paralimpiya Oyunlarında ilk medalını qazanıb.

100 metr məsafəyə arxasıüstə üzgüçülük yarışlarının final mərhələsində atletimiz məsafəni 1:00.91 dəqiqəyə qət edərək Rio Paralimpiadasının gümüş medalına sahib olub.

Digər üzgüçümüz Dmitri Saley isə yarışı 6-cı pillədə başa vurub.

Yarışın qalibi ukraynalı Sergey Klippert, bürünc medalçısı isə ABŞ təmsilçisi Tuker Dupri olub.

Qeyd edək ki, bir gün əvvəl Dmitri Saley 100 metr məsafəyə brass üsulla üzgüçülük yarışlarında gümüş medala sahib olub.

## Azərbaycan kikboksçusu "Çempionlar çempionu" titulu uğrunda mübarizə aparacaq




Azərbaycan kikboksçusu Kamil Şərifov növbəti döyüşünə çıxacaq.

Kikboksçumuz Almaniya təmsilçisi Patrik Qeisler ilə "Çempionlar çempionu" titulu uğrunda görüşdə qarşılaşacaq.

Döyüş sentyabrın 25-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçiriləcək.

Qeyd edək ki, təmsilçimiz Kamil Şərifov 4 qat dünya, 11 qat Azərbaycan çempionu və dünya kubokunun sahibidir.

## Yunan-Roma güləşi üzrə Azərbaycan yığması dünya ikincisi olub



Tbilisidə yeniyetmə güləşçilər arasında dünya çempionatı davam edir.

İlk iki yarış günündə yunan-Roma güləşçiləri arasında qaliblər müəyyənləşib. Böyük məşqçi Bəhram Mürvətov, məşqçilər İslam Abbasov və Fuad Alıyevin rəhbərliyi altında mübarizə aparan Azərbaycan yığma komandası çempionatı 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurub.

Qızıl medalı yığmamıza 46 kiloqram çəkidə mübarizə aparan Fail İsgəndərov qazandırıb. Ülvi Qənizadə (69 kq) və Nəsir Həsənov (76 kq) yalnız finalda uduzaraq gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Zaur Əliyev (42 kq) və Zaur Nuriyev (50 kq) qazandırıblar.

Komanda hesabında 63 xal toplayan Azərbaycan yığması dünya çempionatını ikinci sırada tamamlayıb. İran (68 xal) birinci, Türkiyə (63 xal) yığması isə üçüncü pilləni tutub.

## "Qarabağ" komandası UEFA Avropa Liqasının qrup mərhələsində ilk oyununu keçirib



Ağdamın "Qarabağ" komandası "Dalğa Arena"da Çexiyanın "Slovan" klubunu qəbul edib.

Oyunun 1-ci dəqiqəsində "Slovan"ın futbolçusu Yan Sikora hesabı açıb. Altı dəqiqə sonra "Qarabağ"ın futbolçusu Miçel hesabı bərabərləşdirib. Komandaların cəhdlərinə baxmayaraq ilk hissə 1:1 hesablı heç-heçə ilə yekunlaşıb.

İkinci hissədə növbəti qolu 68-ci dəqiqədə Milan Baroş ikinci topu "Qarabağ"ın qapısından keçirib. Ağdamlılar matçın əsas vaxtına əlavə olunan hissənin 2-ci dəqiqəsində hesabı bərabərləşdiriblər. Rəşad Sadıqov gözəl zərbə ilə adını tabloya yazdırıb - 2:2

Beləliklə, görüş 2:2 hesablı heç-heçə ilə başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 496
Nüsxə 4650